**UOT 76** **TƏSVİRİ SƏNƏT**

**Aslan Əkbər oğlu Xəlilov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: aslan_ashiq@mail.ru**

# ƏLƏKBƏR RZAQULİYEV YARADICILIĞINDA AŞIQ ƏLƏSGƏR OBRAZI

**Xülasə:** Məqalədə Əməkdar rəssam Ələkbər Rzaquliyevin bədii görüntüyə gətirdiyi Aşıq Ələsgər obrazı, o cümlədən lirik ruhlu əsərlərin bədii xüsusiyyəti tədqiq edilir. Rəssamın Şəkidə, Bakıda keçirilən toy-düyünlərdə milli geyimli el aşıqlarını görməsi, onların heyrətdoğurucu çıxışlarını müşahidə etməsi onu musiqi – lirik motivli əsərlər yaratmağa həvəsləndirmişdi. Bu mənada onun “Gənc aşıq oxuyur” (1962), “Saz çalan aşıq qız” (1960-cı illər), “Aşıq Ələsgər – vurulmuş aşıq” (“Sevgililər”) (1971) və “Aşıq Ələsgər” (1972) əsərlərini qeyd etmək olar. Ələkbər Rzaquliyevin bu cür mövzulara müraciət etməsi, əslində həm də onun özünə ifadə vasitəsi kimi seçdiyi ağ-qara cizgilərin bədii təsir gücünü, bütünlükdə isə yaradıcı potensialını nümayiş etdirmək istəyinin göstəricisidir.

**Açar sözlər:** Ələkbər Rzaquliyev, qrafika, poeziya, Aşıq Ələsgər, linoqravüra

Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələrindən olan Əməkdar rəssam Ələkbər Rzaquliyev milli-mədəni irsimizi zənginləşdirən sənətkarlardandır. Rəssamın yüksək bədii-estetik dəyərə malik olan və özündə qədim milli miniatür ənənələrinin cizgilərini əks etdirən çoxsaylı qrafika əsərləri bunun əyani göstəricisidir. Vurğuladığımız məziyyətləri onun müxtəlif mövzulu əsərlərində, o cümlədən “Köhnə Bakı” linoqravürlər silsiləsində müşahidə etmək mümkündür.

Çəkdiyi çoxsaylı əsərlərdə xalqının uzaq-yaxın keçmişinə qeyri-adi sevgisini sərgiləyən rəssam özünün tarixə və milli etnoqrafiyaya bələdçiliyini yüksək səviyyədə ifadə etdiyindən bu əsərləri “Qədim Bakının bədii ensiklopediyası” da adlandırmaq olar. Elə bu səbəbdən də zamanında sənət dostları tərəfindən əsərlərinin uzaq-yaxın keçmişi özündə bənzərsiz tutumda yaşatdığına görə “qocaman rəssam” adlandırılan Ə.Rzaquliyev, əslində yaratdığı bütün əsərlərində bədii baxımdan çox təravətli və mənən gənc ruhlu görünürdü.

Xalqımızın qədim adət-ənənələrinə, qədim şəhərin milli memarlıq abidələrinə, çox koloritli tutumu ilə seçilən köhnə Bakı tiplərinə yaradıcılığında geniş yer ayıran

Ə.Rzaquliyev, eyni zamanda özündə musiqi və poeziya motivlərini əks etdirən lirik ruhlu səhnələrin də böyük ustasıdır. Rəssamın Şəkidə, Bakıda keçirilən toy-düyünlərdə milli geyimli el aşıqlarını görməsi, onların heyrətdoğurucu çıxışlarını müşahidə etməsi onu musiqi – lirik motivli əsərlər yaratmağa həvəsləndirmişdi. Bu mənada Ə.Rzaquliyevin tipləri arasında musiqi ruhuna bələnmiş milli musiqiçi və aşıq tiplərini canlandıran "Gənc aşıq oxuyur" (1962), "Saz çalan aşıq qız" (1960-cı illər) və "Mütrüb" (1962), "Aşıq Ələsgər – vurulmuş aşıq" ("Sevgililər") (1971) və "Aşıq Ələsgər" (1972) kimi poetik linoqravürlərini Azərbaycan təsviri sənətində dahi saz-söz xiridarına həsr olunmuş uğurlu əsərlərdən hesab etmək olar. Rəssamın bu cür mövzulara müraciət etməsi, əslində həm də onun özünə ifadə vasitəsi kimi seçdiyi ağ-qara cizgilərin bədii təsir gücünü, bütünlükdə isə yaradıcı potensialını nümayiş etdirmək istəyinin göstəricisidir.

Bütün yaradıcılığını milli motivlərin bədiiləşdirilməsinə həsr edən rəssamın 60-cı illər yaradıcılığında musiqili səhnələrin yer almasını haradasa təbii saymaq olar. Belə ki, əgər "Köhnə Bakı"da o, daha çox Bakı həyatını – uşaqlıq illərinin müşahidələrini bir-birindən maraqlı süjetlərdə ifadə edirdisə, kənd həyatı ilə bağlı motivlər isə Gəncədə və Şəkidə gördüklərinin əksi idi. Başqa sözlə desək, musiqi ünvanlı əsərlərinin obrazları həm şəhər, həm də rayon müşahidələrinin nəticəsi idi. Onun Şəkidə keçirilən toy-düyünlərdə milli geyimli el aşıqlarını görməsi, onların heyrətdoğurucu çıxışlarını müşahidə etməsi onu musiqi motivli əsərlər yaratmağa həvəsləndirmişdi.

Rəssamın "Gənc aşıq oxuyur" (1962) və "Saz çalan aşıq qız" (1960-cı illər) lövhələrində qədim musiqi sənəti ənənələrinin gənc ifaçılar tərəfindən uğurla davam etdirildiyini göstərmək istəmişdir. Bu kompozisiyalarda müəllifin cəlbedici axıcı cizgilərin ifadəli tutumu ilə əsərlərin musiqi ruhunun qabardılmasını əldə etdiyini görmək mümkündür. Bununla belə ona qədər bu motivin dünya və Azərbaycan təsviri sənətində təcəssümü tarixi ilə tanış olan Ə.Rzaquliyev, bu lirik mövzuya müraciətində yaradıcı amalına sadiq qalaraq kimlərisə təkrarlamaq, hansısa əsərlə anım-assosiasiya yarada biləcək lövhələr yaratmaq fikrindən çox uzaq idi. Digər mövzu və motivlərə müraciətində adilikdə və sadəlikdə özünəməxsus məna-məzmunla yanaşı, həm də estetik işartı görməyi bacaran rəssam özünün də daşıdığı bu bəşəri hissin doğurduğu çoxqatlı yaşantını təbii və səmimi bədii tutumda göstərmək istəyirdi. Onun ərsəyə gətirdiyi çoxsaylı lövhələrə adi nəzərlə belə onların bilavasitə rəssamın müşahidələri əsasında yarandığına əmin olmaq mümkündür. Bu səbəbdən əhatələndiyi məkanda baş verən motivləri bədiiləşdirən Ə.Rzaquliyev, son nəticədə, bilavasitə milli koloriti ilə diqqətçəkən kompozisiyalar yaratmağa nail olmuşdur. Onun portretlərində müxtəlif bədii təsvir vasitələri ilə obrazların zahiri

oxşarlığı və ictimai mövqeyi, onların daxili aləmi, xarakterik xüsusiyyətləri fərqli rəssam təqdimatında öz ifadəsini tapmışdır.

Obrazların geyimləri özündə milli etnoqrafiyanın əlamətlərini yaşatdığından, obrazlı tutumuna görə zamansızlığa qovuşması birmənalı olan bu əsərin tarixi-bədii irsimizə layiqli töhfə olduğunu deməliyik. “Belə bir fikir var: poeziya insanların heyrət etdiyi vaxtdan mövcuddur. Bu fikrin nə dərəcədə doğru olub-olmaması ilə işimiz yoxdur. Psixoloqlar sübut etmişlər ki, hər hansı yaradıcı işin arxasında insan heyrəti, insan təəccübü durur. Ə.Rzaquliyev heyrətlənməyi, təəccüblənməyi sevir. Özü də bu cəhət onun əsərlərində açıq-aşkar hiss olunur” [1].

Yuxarıdakı fikrin ünvanlandığı rəssamın yaradıcılığında heyrətdən yaranan əsərlər kifayət qədərdir. Ə.Rzaquliyev həmin ilham qaynaqlarını həyatla yanaşı, ədəbiyyatda və musiqidə, eləcə də estetika daşıyıcısı olan digər mənəvi mənbələrdə axtarırdı.

Sürgündən qayıdandan sonra paytaxtda yaşamasına icazə verilməyən Ə.Rzaquliyev bir müddət əyalətdə yaşamalı olmuşdu. Burada müşahidə etdiyi el şənliklərində və toylarda tez-tez Aşıq Ələsgərin bədii irsinə müraciət olunması rəssamda onun obrazına müraciət etmək istəyi yaratmışdı. Bu mənada onun həm “Aşıq Ələsgər – vurulmuş aşıq” (“Sevgililər”) (1971) və “Aşıq Ələsgər” (1972) qrafik lövhələrinin də rəssamın aşıq musiqisinə rəğbəti nəticəsində yarandığını söyləmək olar.

1970-ci illərdə Azərbaycanın görkəmli el sənətkarı Aşıq Ələsgərin anadan olmasının 150 illik yubileyi qeyd olunurdu. Ə.Rzaquliyevin bu münasibətlə ərsəyə gətirdiyi Aşıq Ələsgər ünvanlı qrafik lövhələri özünəməxsus bədii həlli ilə seçilir. “Aşıq Ələsgər – vurulmuş aşıq” (“Sevgililər”) (1971) lövhəsi üçün rəssam işıqlı fon-yerlik seçmişdir.



**Ə. Rzaquliyev. “Aşıq Ələsgər – Vurulmuş aşıq” (“Sevgililər”). 1971.**

Əsərdə rəssam əlində saz tutmuş Aşıq Ələsgəri sevgilisi ilə nar ağaclarının altında əyləşmiş halda təsvir edib. Sevgililərin ayaqları altında məhəbbət rəmzi kimi narların əks olunması da məntiqli qəbul olunur. Kompozisiyanın ümumi görünüşünü arxadakı nar ağaclarının budaqlarını qovuşdurmaqla tağ formasında həll edən rəssam, qabarıqlığı onsuz da duyulan olan sevgililərin çöhrələrində yaşanan duyğuları daha yaxından izləməyə imkan verir. Bir əli ilə sazı tutan aşığın dilə gətirdiklərindəki misraların şirinliyindən xoşhal olan qızın iri açılmış, maraq dolu gözlərində məhəbbət alovunun duyulduğunu əldə edən müəllif, bununla da aşiqlərin görüşünün nikbin ovqatlı olduğuna işarə etmişdir. Ağ yerlikdə obrazların fiqurlarının ifadəli siluetinin axıcı ritmi də rəssam tərəfindən məqsədli şəkildə düşünülüb və bilavasitə təsvirin cəlbediciliyinin əldə olunmasına hesablanıb. Əsərin daha bir bədii məziyyəti rəssamın obrazları dolğunluğu hiss olunan mənəvi-psixoloji tutumlu cizgilərə bələyə bələməsidir. Kifayət qədər iri ölçülü kompozisiyada (37, 5x50 sm) obrazları səciyyəvi və yaddaqalan cizgilərlə gerçəkləşdirməklə, bütünlükdə, Aşıq Ələsgər ünvanlı bədii saxlanca layiqli töhfə verdiyini təsdiqləmişdir.

Bizim dövrümüzə aşığın foto-şəkli gəlib çatmadığından, onun ərsəyə gətirilən hər bir portreti rəssam təxəyyülünün nəticəsi hesab olunur. Əlavə edək ki, elə ötən əsrin yetmişinci illərində aşığın obrazının yaradılması üçün müsabiqə elan etmək əvəzinə, onun çəkilməsi bilavasitə rəssam B.Mirzəzadəyə həvalə olunmuşdu. Onun yaratdığı obraz qəbul olunsa da, rəssam portretdə məşhur sənətkarın solaxay olmasını nəzərə almamış və bununla əslində tarixi həqiqəti təhrif etmişdi. Bütün bunlardan xəbərdar olan və dünyanın hər üzünü görmüş Ə.Rzaquliyev hər şeyi olduğu kimi təqdim etməyə qərar verir. Onun Aşıq Ələsgərə həsr etdiyi əsərlərin birində sənətkarın sol əllə çaldığı aydın görünür.

"Aşıq Ələsgər" adlanan bu əsər 1972-ci ildə ərsəyə gətirilmişdir. Onun kompozisiyasında aşığın sevgi duyğuları ilə zəngin olan poeziyası ilə səsləşən məqamlar duyulandır. Elə bu əsərdə də şairin dillər əzbəri olan "Çərşənbə günündə, çeşmə başında" adlı şeirinin – ustad aşığın adı ilə tamamlanan son bəndinin lirik-poetik ovqatlı kompozisiyanın leytmotivini təşkil etməsi qabarıqdır:

Ələsgərəm, hər elmdən halıyam,
Gözəl, sən dərdlisən, mən yaralıyam,
Dedi nişanlıyam, özgə malıyam,
Sındı qol-qanadım, yanıma düşdü.

Aşıq Ələsgərlə bulaq başından qayıdan gənc qızı əvvəlki əsərlərindən fərqli fon-yerlikdə təqdim edən rəssam, bununla da görüşün məna-məzmun yükünə

özünəməxsus bədii işarələr qatmağa nail olmuşdur. Yuxarıda şərh etdiyimiz sevgi motivlərinin məkanından fərqlənən bu təqdimatda kompozisiyaya poetik misralar dolu "kətəbə"nin daxil edilməsi, qənaətimizcə, həm də şeirin təzadlı ruhundan qaynaqlanır. Kompozisiyada pessimizmin əlaməti duyulmasa da, rəssam bu iki nəfərin çöhrələrinə nikbin notlar hopdurmaqla, onların bu təsadüfi görüşdən məmnun qaldıqlarına bədii işarə vurmaq istəmişdir. El-obada çox məşhur olan Aşıq Ələsgər kimi sənətkarın həmdəmi olmağı özünə şərəf hesab edə biləcək qızın ona "yox" deməsində, heç şübhəsiz rəğbətdən daha çox adət-ənənəyə bağlılığın əlamətləri duyulur. Odur ki, baş tutmayan bu sevda aşığı ilhamlandırdığı kimi, qızı da üzmür, ünvanına söylənən misralardan razı qaldığını ifadə edir...

Rəssamın özündə aşıq-şairin səciyyəvi xüsusiyyətlərini cəmləşdirən Aşıq Ələsgər ünvanlı lirik-poetik ruhlu linoqravürlərini Azərbaycan təsviri sənətində Aşıq Ələsgərə həsr olunmuş uğurlu əsərlərdən hesab etmək olar.

"Ə.Rzaquliyevin qravürlərində canlanan personajlar həmişə vahid bir dinamika, emosional mühit daxilində təsvir olunur. Beləliklə, təsvir obyektində poetik bir təhkiyə üsulu ilə plastik ifadə tərzinin mükəmməl təzahürünü görürük" [3, s.25]. Bu fikri rəssamın digər mövzularda yaratdığı əsərlərlə yanaşı, sevgi motivli linoqravürlərinə də aid etmək olar. Belə ki, müraciət etdiyi sevgi motivlərinin cəlbedici və təsirli bədii tutumunun əldə olunmasına səy göstərən Ə.Rzaquliyev eyni zamanda əsərlərinə cizgilərin "qarşıdurması" ilə təzadlı və çeşidli poetik ovqat bəxş etməklə, tamaşaçısına təsiri uzun müddət unudulmayacaq romantikaya bələnmiş lirik estetik qaynaq bəxş etmişdir.

Sonda qeyd edək ki, XX əsr Azərbaycan dəzgah qrafikasının uğur qazanması uzun müddətli – mürəkkəb bədii-yaradıcı prosesin nəticəsi olmaqla, mahiyyətinə görə novator ruhlu olmuşdur və bunun əldə olunmasında Ə.Rzaquliyevin müstəsna rolu olmuşdur. Qədim tarixə malik olan miniatür ənənələrini və realist sənətin bədii prinsiplərini özünə təkanverici bədii ifadə vasitəsi hesab edən rəssam, onların uğurlu və özünəməxsus qovşağını əldə etməklə, milli təsviri sənət məkanını duyulası dərəcədə zənginləşdirəcək əsərlər yaratmağa nail olmuşdur. Ən müxtəlif mövzulara müraciətində bədii şərh və ifadə baxımından orijinal görünən rəssam bu mənada özünün sevgi motivlərində də yeni və maraqlıdır. Rəssamın milli bədii-mədəni irsin yaradıcılıqla təhlili və təfsiri sayəsində yaratdığı sevgi motivləri ilk növbədə təbiiliyi və səmimiliyi ilə seçilir. Belə ki, burada bədiiləşdirilən hər bir motiv bərbəzəkdən, pafoslu təqdimatdan çox uzaqdır. Həmin əsərlərdəki motivlər müasirlərinin hər gün və hər an görə biləcəkləri səhnələrdir.

Uşaqlıq xatirələrinə müdriklik çağında "bədii güzgü" tutan Ə.Rzaquliyev, bu iki və çox fərqli yaş mərhələsinin ümumi fikrin açımında yardımçı ola biləcək,

xüsusiyyətlərini bir araya gətirməklə, yaddaş və təcrübə kontekstində bütün yaradıcı düşüncələrini gerçəkləşdirməyə çalışmışdır. Onun yaradıcılığında xüsusi yeri olan sevgi motivləri də öz bədii təcəssümün məhz bu kontekstdə tapmışdır. Odur ki, ictimai, istehsalat və məişət məkanlarında təqdim olunan sevgi motivləri bütün mənalarda cəlbedici və yaddaqalandır. Yaxşı haldır ki, bədii tutumu yüksək estetika daşıyıcısı olan bu əsərlər həm də rəssamın fərdi dəst-xəttinin, sənətkar amalının tərkib hissəsi kimi qəbul olunur. Rəssamın sevgi motivlərində ifadə olunan hiss-duyğular bəşəri dəyərlərin tərkib hissəsi kimi təqdim olunduğundan, onlar bədii şərhinə və məna-məzmun yükünə, emosionallıq daşıyıcılığına görə milli çərçivəni aşmış qəbul olunur. Ə.Rzaquliyevin tarixə bələnmiş lirik – poetik motivləri həm də bu bədii-estetik məziyyətinə görə həmişəyaşardır.

**Ədəbiyyat siyahısı:**

1.İsmayılzadə İ. İllərin axını, əllərin heyrəti. “Ədəbiyyat və incəsənət” qəz., 1968, 12 oktyabr, № 41 (1492).
2.Əliyev Z. Qara rəngin işığı. “Kaspi” qəz., 2016, 24 sentyabr.
3.Hacıyev P. Poetik qravüra ustası // “Elm və həyat” jurnalı, 1970, № 11. s.24-26.
4.Həbibova S. Ələkbər Rzaquliyev. “Sərvət”. Bakı: “Şərq-Qərb” Nəşriyyat evi, 2013. 104 səh.
5.Rəssamın oğlu Aydın Rzaquliyevin şəxsi arxiv materialı.
6.Xəlilov A. Ələkbər Rzaquliyev yaradıcılığının bədii xüsusiyyətləri. Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2017, 114 s.
7.Свиридова И. А. Алекпер Рзакулиев. М. «Советский художник». 1970 г. 82 с.

**Аслан Акбер оглы Халилов**

## ОБРАЗ АШУГА АЛАСГАРА В ТВОРЧЕСТВЕ АЛЕКБЕРА РЗАГУЛИЕВА

**Резюме:** В статье исследуется образ Ашуга Алескера, внесенный в художественный образ Заслуженным художником Алекбером Рзагулиевым, а также художественные особенности лирических произведений. Художник видел ашугов в национальных костюмах на свадьбах в Шеки и Баку и наблюдал за их удивительными выступлениями, что побудило его к созданию музыкально-лирических произведений. В этом смысле отметить его такие работы как «Юный ашуг поет» (1962), «Ашугскую девушку играет саз» (1960-е), «Ашуг Алескер - влюбленный ашуг» («Влюбленные») (1971) и «Ашуг Алескер»

(1972). Обращение Алекбера Рзагулиева к подобным темам, по сути, свиде- тельствует о его желании продемонстрировать художественное воздействие черно-белых линий, выбранных им в качестве средства выражения, а также вцелом его творческий потенциал.
**Ключевые слова:** Алекбер Рзагулиев, графика, поэзия, Ашуг Алескер, линогравюра.

**Aslan Akbar oghlu Khalilov**
**THE IMAGE OF ASHUG ALASGAR IN THE CREATIVITY OF ALAKBAR RZAGULIYEV**

**Summary:** The article examines the image of Ashug Alasgar brought to the artistic image by Honored artist Alakbar Rzaguliyev, as well as the artistic featuresof lyric at his works. The artist's seeing ashugs in national costumes at weddingsin Shaki and Baku and observing their amazing performances encouraged him to create music-lyrical motifs. In this sense, his “Young ashug sings” (1962), “Saz playing ashug girl” (1960), “Ashug Alasgar - shot ashug” (“Lovers”) (1971) and “Ashug Alasgar” (1972) should be mentioned. Alakbar Rzaguliyev's appeal to such topics is, in fact, an indication of his desire to demonstrate the artistic impact of thewhite-black lines he has chosen as a means of expression, as well as his creative potential as a whole.
**Key words:** Alekber Rzaguliev, graphics, poetry, Ashug Alasgar, linocut.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 10. 10. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Sevil Kərimova**